**Qadınlar və kişilər arasında fərdi, həmçinin komandalar arasında ölkə çempionatı**
Tarix: 29 noyabr - 1 dekabr 2024 (28 noyabr gəlmə günü)
Yarış məkanı və rəsmi çəki: Bakı İdman Sarayı
Yarışlar hər gün saat 09:00-da başlayır
Fərdi yarış günləri saat 08:30-09:00 idmançıların seçmə üsulu ilə 5 % test çəkilməsi

**28 Noyabr: Gəlmə günü**
Mandat komissiyası saat: 12:00-15:00
Fərdi yarışların rəsmi çəkisi: saat 16:00-17:00
Qadınlar: -70 kq, -78 kq, +78 kq
Kişilər: -60 kq, -66 kq, -73 kq.
Bütün çəkilər üzrə püşkatma: saat 18:00

**29 Noyabr: Fərdi yarışlar**
İlkin görüşlər: 09:00
Qadınlar: -70 kq, -78 kq, +78 kq.
Kişilər: -60 kq, -66 kq, -73 kq.
Rəsmi açılış mərasimi: saat 15:30
Final görüşləri: saat 16:00
Fərdi yarışların rəsmi çəkisi: saat 16:00-17:00
Qadınlar: -48 kq, -52 kq, -57 kq, -63 kq.
Kişilər: -81 kq, -90 kq, -100 kq, +100 kq.

**30 Noyabr: Fərdi yarışlar**
İlkin görüşlər: saat 09:00
Qadınlar: -48 kq, -52 kq, -57 kq, -63 kq.
Kişilər: -81 kq, -90 kq, -100 kq, +100 kq.
Komanda yarışlarının püşkatamsı: 15:45
Final görüşləri: saat 16:00
Komanda yarışlarının rəsmi çəkisi: saat 16:00-17:00
Qadınlar: -52 kq, -57 kq, -63 kq, -70 kq, +70 kq.
Kişilər: -66 kq, -73 kq, -81 kq, -90 kq, +90 kq.

**1 dekabr: Komanda yarışları**
İlkin görüşlər: saat 09:00
Qadınlar: -52 kq, -57 kq, -63 kq, -70 kq, +70 kq.
Kişilər: -66 kq, -73 kq, -81 kq, -90 kq, +90 kq.
Final görüşləri: saat 16:00
Sifarişlərin son qəbul günü 22 noyabr 2024-cü il saat 09:00-18:00 ACF-nın yeni inzibati binasında qəbul olunur. Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Azadlıq prospekti 128 (keçmiş Neftçi Baza)
Bakı komandaları üçün sifarişlər ACF-nin inzibati binasında qəbul olunur.

**Qeyd:**
1) Sifarişlərdə İdmançıların sağlamlığına təsdiq edən yalnız idman dispanserinin möhürü olmalıdır və ya yaşayış yerində olan Poliklinikadan həkim arayışı sifarişin üstünə əlavə olunmalıdır.
   Sifarişdə idmançının Ş/V Fin kodu və məşqçinin ad soyadı da daxil olmaqla bütün xanalar tam doldurulmalıdır. Yarımçıq sifarişlər qəbul edilməyəcək.
   Şəxsi həkimin möhürü qəbul olunmur

2) Məşqçilərin geyim forması ACF-nın tələbinə uyğun olmalıdır: (beynəlxalq qaydalara uyğun olaraq ilkin görüşlərdə idman forması, final görüşlərində yalnız kostyum və qalstuk)

3) Fərdi və komanda yarışlarında İdmançıların yarışa ağ və göy cüdoqidə çıxması tələb olunur.
Rəsmi tərəzi vaxtı idmançıların tərəzidə çəkilməsinə yalnız bir dəfə icazə verilir.
Fərdi yarışlarda mübarizə aparacaq idmançılara 200 qrama qədər çəki güzəşti verilir. 200 qram və 200 qramdan artıq çəkiyə icazə verilmir.

Fərdi yarışlara Bakı şəhərindən qadınlar arasında hər çəki dərəcəsində 12 idmançı, 4 məşqçi, kişilər arasında yarışa hər çəki dərəcəsindən 20 idmançı, 6 məşqçi buraxılır.

Sumqayıt şəhərindən qadınlar arasında yarışa hər çəki dərəcəsində 7 idmançı, 3 məşqçi, kişilər arasında yarışa hər çəki dərəcəsində 16 idmançı, 5 məşqçi buraxılır.

Gəncə şəhərindən qadınlar arasında yarışa hər çəki dərəcəsində 3 idmançı, 2 məşqçi, kişilər arasında yarışa hər çəki dərəcəsində 7 idmançı, 3 məşqçi buraxılır.

Naxçıvan MR-dan hər çəki dərəcəsində qadınlar arasında hər çəki dərəcəsində 2 idmançı, kişilər arasında 4 idmançı, 2 məşqçi buraxılır.

Digər şəhər və rayon komandalarından qadınlar arasında hər çəki dərəcəsində 2 idmançı, kişilər arasında hər çəki dərəcəsində 4 idmançı, 1 məşqçi buraxılır.

Fərdi yarışlara kvotadan əlavə olaraq sonuncu ölkə çempionatında, həmçinin U-18 və U-21 ölkə birinciliklərində I-III yerləri tutmuş idmançılar buraxılır.

Ölkə çempionatına milli yığma komandanın baş məşqçisinin təqdimatı əsasında və Azərbaycan Cüdo Federasiyasının baş katibinin qərarı ilə əsasnamədə göstərilən hər çəki dərəcəsində əlavə idmançılar buraxıla və ya birbaşa buraxılışı ləğv edilə bilər.

Komandalar arasında yarışlarda hər komandada idmançı sayı maksimum 10 nəfər ola bilər. (hər çəki dərəcəsində 2 nəfər)

Hər komanda yarış vaxtı maksimum 2 məşqçi ilə təmsil oluna bilər.

Komandalar komanda yarışlarında digər idman təşkilatlarından maksimum 2 idmançını öz heyətinə qatmaq imkanına malikdir.

Azərbaycan çempionatının fərdi yarışlarının sonuncu günündə mübarizə aparan idmançılar komandalar arasında yarışlar üçün keçirilən rəsmi çəkidən azad olunurlar.

Əvvəlki gündə fərdi yarışlarda iştirak etmiş idmançılar isə rəsmi çəkidə iştirak etməlidirlər. Bu zaman onlara +2 kq. güzəşt tətbiq edilir. Bu güzəşt fərdi yarışlarda iştirak etməyən idmançılara aid edilmir.

Komanda yarışlarında hər bir idmançı fərdi yarışlar üçün verilmiş sifarişdə qeyd olunan çəki dərəcəsində və ya növbəti daha yüksək çəki dərəcəsində mübarizə apara bilər.

**<u>Yarışların mükafat fondu 50000 AZN təşkil edir.</u>**

**Fərdi yarışlarda yer tutmuş kişi idmançılar:**
1-ci yer - 1000 AZN
2-ci yer - 700 AZN
3-cü yerlər - 350 AZN

**Fərdi yarışlarda yer tutmuş qadın idmançılar:**
1-ci yer - 1000 AZN
2-ci yer - 700 AZN
3-cü yerlər - 350 AZN

**Komanda yarışlarında yer tutmuş kişilərdən ibarət komandalar:**
1-ci yer - 3400 AZN
2-ci yer - 2400 AZN
3-cü yerlər - 1200 AZN

**Komanda yarışlarında yer tutmuş qadınlardan ibarət komandalar:**
1-ci yer - 3400 AZN
2-ci yer - 2400 AZN
3-cü yerlər - 1200 AZN